Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Qoy həmişə sülh olsun..

**21 sentyabr – Beynəlxalq sülh günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Ülkər Cabarova**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**“Qoy həmişə sülh olsun..”** 21 sentyabr – Beynəlxalq sülh günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed.C.Ülkər; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. –30s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Tərtibçidən

BMT bu günü 1981-ci ildə təsis edib. İlk sülh günü 1981-ci ilin sentyabrında qeyd olunub. O vaxtdan Beynəlxalq Sülh günü sentyabr ayının hər 3-cü çərşənbə axşamı qeyd edilirdi. Lakin 2001-ci ildə Birləşmiş Kralıq tərəfindən təklif olunan qətnamə ilə 2002-ci ildə BMT Sülh günü üçün 21 sentyabr tarixini dəqiq tarix kimi müəyyənləşdirib və bu tarixi ümumdünya atəşkəs günü elan edib.

21 sentyabr nəinki yalnız xalqlar arasında, həmçinin, ailələrdə, məktəblərdə köklü zorakılığa qarşı mübarizənin əldə olunmasına nail olmaq üçün bir gündür. Bu səbəbdən də 21 Sentyabr bütün planet insanları üçün çox vacibdir. Bugünki gün üçün əsas məqsəd insanları yaşından, irqindən, milliyətindən, dinindən və cinsindən asılı olmayaraq, sülhə nail olmaq istəyən hər kəsə yardım etmək, onları “Sülh gələcəyimizin rəmzidir” şüarı altında birləşdirməkdən ibarətdir. Bu vəsait Beynəlxalq sülh günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmışdır.

## Giriş

Bu gün dünyada yüz milyonlarla insanın dərin ürək çırpıntısı, böyük ümid, şirin arzularla təkrar etdiyi müqəddəs bir söz vardır - Sülh! Bu söz özü-özlüyündə böyük bir məna kəsb edir. Sülh dinclik, əmin-amanlıq, qurub-yaratmaq, sosial, iqtisadi və mədəni inkişaf deməkdir. Sülh carçıları isə gələcəyimiz olan uşaqlardır. Yəni uşaqlar daim açıq səma altında azad, sülh və əmin-amanlıq şəraitində, atalı-analı yaşamaq arzusunda olublar. Sülhün carçıları olan göyərçinlərin uşaqlar tərəfindən daha çox sevilməsi də bundan irəli gəlir. Lakin çox təəssüf ki, hələ də bəşəriyyətin tam təhlükəsizliyi təmin olunmayıb. Ayrı-ayrı regionlarda, ümumilikdə isə dünyanın bir çox yerlərində münaqişələr davam etməkdə, torpaqlar qan çanağında boğulmaqda, günahsız uşaqlar və gənclər odsaçan silahların qurbanına çevrilməkdədirlər. Sülh bəşəri rəmzə çevrilərək insanların arzu etdiyi və can atdığı bütün müsbət keyfiyyətləri özündə birləşdirən fundamental bir məfhumdur. Ona görə də dünya ölkələrinin yekdil qərarı ilə BMT 1981-ci ildə 21 sentyabrın Beynəlxalq Sülh Günü kimi qeyd olunması barədə qərar qəbul etmişdir. 2001-ci ildə Birləşmiş Krallıq tərəfindən təklif olunan qətnaməyə əsasən o vaxtdan Sülh Günü əlamətdar bir hadisə kimi dünya miqyasında qeyd olunur.

İnsanları sülhə, sabitliyə, təhlükəsizliyə çağıran bu gün BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında quraşdırılan "Sülh zəngi" nin çalınması ilə başlayır. Yaponiya parlamentinin bütün dünya xalqlarına hədiyyəsi olan bu zəngin üzərində yazılmış "Yaşasın Mütləq Dünya Sülhü" sözləri sanki bəşəriyyətin qorunması, silahların susdurulması, sakini

olduğumuz dünyamızda əmin-amanlığın təminatı üçün həyəcan siqnalıdır. Məhz bu gündə həmin zəng çalınaraq qan-qada gətirən döyüşləri 24 saat ərzində dayandırmağa, münaqişə və müharibələr zamanı həlak olanların xatirəsinin bir dəqiqəlik sükutla yad olunmasına çağırış edir. Sülhün bərqərar olmasına yönəlmiş bu çağırış insanlığın missiyası, bəşəri dəyərlərin ən önəmlisidir.

Ənənəvi olaraq Nyu-Yorkda keçirilən və gündəliyində planetimizin qorunması üçün sülh, sabitlik, təhlükəsizlik kimi əhəmiyyətli məsələlərin dayandığı BMT Baş Assambleyasının sessiyalarında dövlət başçıları bir araya gələrək yoxsul ölkələrdə xəstəlik, ana və uşaq ölümlərinin qarşısının alınması, yoxsulluq və aclıqla mübarizə yolları ilə bağlı müzakirələr aparır, əhalisi aclıqdan, maddi vəziyyətdən əziyyət çəkən xalqlara yardımların ayrılması ilə bağlı fikirlərini bildirirlər. Ümumi rəy bu olur ki, səyləri birləşdirməklə qarşıya qoyulan məqsədlərə lazımi səviyyədə nail olmaq mümkündür.

Ulu öndər Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın qeyd olunan istiqamətdə də yeri və roluna öz müsbət təsirini göstərir. Dünyada sülhün, təhlükəsizliyin təminatını vacib amil kimi önə çəkən dövlətimizin başçısı İlham Əliyev bütün münaqişəli məsələlərin beynəlxalq hüquq normaları çərçivəsində həllinə səy göstərir. Ən yüksək tribunalardan qətiyyətlə bəyan edir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası üçün vahid mexanizm olmalıdır.

http://anl.az/el/vsb/Beynelxalq_sulh_gunu/index.htm

## Keçiriləcək tədbirlər

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə oxu zalında İradə Hüseynovanın “Qafqazda sülh prosesi” adlı kitabının təqdimat mərasimi keçirildi. Tədbirin keçirilmə tarixi, yeri əvvəlcədən kitabxananın elektron saytında elan edilir. Tədbirə oxucular dəvət olunur. “Qafqazda sülh prosesi” kitabı haqqında hazırlanmış slayd oxuculara və kitabxanaya dəvət olunan qonaqlara təqdim edilir. Slayd bitdikdən sonra metodist oxuculara kitab haqqında məlumat verir: 670 səhifə həcmində olan bu kitabda Azərbaycanda ilk dəfə olaraq Heydər Əliyevin Qafqaz regionunda sülhün, təhlükəsizliyin və əmin-amanlığın təmin olunmasında həyata keçirdiyi çoxşaxəli fəaliyyəti elmi cəhətdən sistemli və kompleks şəkildə təhlil olunur. Müəllif zəngin tarixi, mədəni, siyasi və iqtisadi irsə və biliklərə əsaslanmaqla, Qafqazda mövcud olan milli münaqişələrin sülh yolu ilə nizamlanması və ümumilikdə regionda sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində ümummilli lider Heydər Əliyevin misilsiz rolunu fundamental şəkildə araşdıraraq ümumiləşdirilmiş və əsaslandırılmış halda oxucuya təqdim edir. Kompleks yanaşma metodundan istifadə edilməsi, SSRİ-nin süqutundan sonra Qafqazda baş verən mühüm tarixi hadisələrlə, xüsusilə regionda sülhün təmin olunmasında Heydər Əliyevin fəaliyyəti ilə ətraflı tanış olmağa imkan verir. Dərslik ali təhsil müəssisələrində çalışan müəllimlər, alimlər, politoloqlar, həmçinin geosiyasi va beynəlxalq problemlerlə məşğul olan mütəxəssislər, magistratura pilləsində təhsil alan magistrlər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdu.

https://drive.google.com/file/d/1p6gKWK2TbY5nw_b08DxpV7hWH9d98-pN/view

**II Metodist:** Kitabda olan bölmə və fəsilərdən qısaca bəhs edən digər metodist davam edir: Mövcudluğu dövründə beynalxalq münasibətlərə əhəmiyyətli təsir göstərmiş SSRİ-nin süqutu dünyanın milli baxımdan özünəməxsus bölgələrindən sayılan Qafqazda etnik separatizm üzərində köklənmiş ciddi münaqişə ocaqları yaratdı. Bu münaqişələr təkcə region dövlətləri üçün deyil, dünya ölkələri üçün də ciddi təhlükə kəsb etməyə başladı. Zəmanəmizin gerçəkliklərini, çağdaş dünyada və regionda baş verən hadisələri, tarixi reallıqları düzgün qiymətləndirən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Qafqazda sülhyaratma prosesine ciddi təkan verildi. Heydər Əliyevin xarici siyasət kursunda önəmli əhəmiyyət kəsb edən sülh konsepsiyası isə bu istiqamətdə mühüm yer tutdu. Belə ki, Heydər Əliyevin həyata keçirdiyi qlobal tədbirlər sayəsində regionda sülh və əmin-amanlığın təmin edilməsi yolunda "Ümumi Qafqaz evi" ideyasının təməli qoyuldu. Bu baxımdan tarix elmləri doktoru, professor İradə Hüseynovanın Prezident Heydər Əliyevin çoxşaxəli fəaliyyəti, onun Qafqaz xalqları qarşısında göstərdiyi misilsiz xidmətlərinin tədqiqinə həsr edilmiş "Heydər Əliyev və Qafqazda sülh prosesi" adlı dərsliyi mühüm əhəmiyyət kəsb edir. Müəllif zəngin tarixi, mədəni, iqtisadi ve siyasi biliklərə əsaslanmaqla Qafqazda sülh və əmin-əmanlığın təminatı istiqamətində 1993-cü ildən başlayaraq, Heydər Əlyevin rəhbərliyi altında ardıcıl şəkildə həyata keçirilmiş tədbirləri

diqqətlə araşdıraraq ümumləşdirilmiş və əsaslandırılmış halda oxucuya təqdim edir. Prezident Heydər Əliyevin sülh konsepsiyası əsasında həyata keçirdiyi tədbirlərin, tarixi hadisələrin geniş təhlili müasir dövrün geosiyasi problemləri baxımından mühüm əhəmiyyət kəsb edir. Dərslikdə Qafqazda və dünyada sülhün alovlu təbliğatçısı olan Prezident Heydər Əliyevin bu istiqamətdəki fəaliyyatinin araşdırılması mühüm yer tutur. İradə Hüseynovanın dərsliyi bölgə xalqlarının normal hayatını pozan və ümumi regional sabitlik üçün ciddi təhlükə yaradan separatizm meyillərinin, etnik, siyasi və dini ekstremizmin aradan qaldırılması yolunda Heydər Əliyevin misilsiz tarixi fəaliyyətinin və xidmətlərinin tədqiqi və tədrisi sahəsində mövcud olan boşluğu doldurmaq baxımından olduqca qiymətlidir. Bu kitab Qafqazda sülh vo inteqrasiya proseslərində Azərbaycanın yeri və rolunu özündə təcəssüm etdirən, göstərilən xronoloji çərşivədə regionda cərəyan edən hadisələrin obyektiv, hərtərəfli və ümumiləşdirilmiş şəkildə təhlilini verən ilk dərslikdir. Heydər Əliyev dünyanın çox mühüm geostrateji, tarixi-mədəni və etnoqrafik areallarından biri olan Qafqazda sülhün ən davamlı və qətiyyətli təşəbbüskarı kimi tarixə düşmüşdür. Dərslikdəki materiallar oxucunu onun bu istiqamətdə həyata keçirdiyi bütün mühüm tədbirlərlə tanış edir. SSRİ-nin dağılması ərəfəsində Qafqazda ictimai-siyasi vəziyyət, Qafqaz xalqlarına qarşı Sovet imperiyasının repressiv tədbirləri və Heydər Əliyevin bu məsələyə münasibəti, Ermənistanın Azarbaycana qarşı hərbi təcavüzü və Dağlıq Qarabağda baş verən hadisələr, Qafqazda müstəqil dövlətlərin yaranması və Cənubi Qafqaz

dövlətlərinin Müstəqil Dövlətlər Birliyi ilə əlaqələri haqqında gərəkli məlumatlar da kitabda öz əksini tapmışdir.

**III Metodist:** Bundan başqa, Qafqazda mövcud olan etnik münaqişələrin səbəb va xüsusiyyətləri, bu münaqişələrin həlli istiqamətində, bölgədə daxili dialoqun yaranması və “Ümumi Qafqaz evi” ideyasının inkişafında Heydər Əliyevin fəaliyyəti və rolu barədə də müəllif ətraflı şərh vermişdir. Kitabda, həmçinin Azarbaycan Gürcüstan mü- nasibətlərinin möhkəmlənməsində, Qafqazda davamlı sülh və əməkdaşlığın inkişafında, Böyük İpək Yolunun bərpasında, ölkəmizdə milli-mənəvi dəyərlərin qorunmasında Heydər Əliyevin titanik fəaliyyəti öz öksini tapmışdır. Heydər Əliyev tərəfindən Cənubi Qafqazın ən önəmli və lider dövləti olan Azərbaycanda 1990-1993-cü illər də vətandaş müharibəsi alovunun söndürülməsi, ölkədə baş alıb gedən qanunsuz silahlı dəstələrin zərərsizləşdirilməsi, ictimai-siyasi sabitliyin tam bərpa edilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi, cəbhə bölgəsində “atəşkəs” rejiminə nail olunması, habelə inkişaf kursu ilə uzlaşan sosial-iqtisadi siyasət strategiyasının irəli sürülməsi məsələləri də dərsliyin tədqiqat obyektinə cəlb edilmişdir.

Kitabda SSRİ-nin süqutundan sonra Qafqazda mövcud olan ictimai-siyasi vəziyyətin, millətlərarası qarşıdurmaların, etnik münaqişələrinin sülh yolu ilə həlli istiqamətində Heydər Əliyevin təşəbbüsləri, Qafqazda etnik münaqişələr və dövlətlərin ərazi bütövlüyü, “milli müqəddəratı təyinetmə” prinsiplərinin uzlaşdırılması, milli münaqişələrin həlli geniş faktiki materiallar əsasında tədqiq edilmişdir.

Professor İradə Hüseynovanın on iki fəsildən ibarət olan bu kitabında Heydər Əliyevin "Ümumi Qafqaz evi" ideyasının məzmun və mahiyyəti geniş şəkildə öz dərin elmi təhlilini tapmışdır. Qafqazda sülhün, sabitliyin qorunmasını şərtləndirən amillər, iqtisadi, mədəni inteqrasiya, "Əsrin müqaviləsi" və burada sülh problemi, Bakı Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi Ərzurum qaz kəməri layihələri bölgədə təhlükəsizliyin, sülhün, sabitliyin təminatı kimi qiymətləndirilmişdir.

Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin edilməsi sahəsində Prezident Heydər Əliyevin gördüyü işlər əvəzsizdir. "Heydər Əliyev və Qafqazda sülh prosesi" adlı bu dəyərli elmi tədqiqat əsəri onun bütün Qafqaz xalqları qarşısında göstərdiyi misilsiz xidmətləri haqqında oxucuda geniş təsəvvür yaradır. Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində Heydər Əliyevin apardığı mübarizənin tarixinə, fəlsəfi, siyasi və sosioloji aspektlərinə kompleks baxış nümayiş etdirir.

Sonda yuxarı sinif şagirdləri tərəfindən hazırlanmış "Biz sülh tərəfindəyik" adlı videoçarxı oxuculara təqdim edilir.

Sentyabrın 5-də F.Köçərli adına Respublika Uşaq Kitabxanasında "Beynəlxalq Sülh aylığı" çərçivəsində "Göyərçinik biz - Sülhdür adımız" adlı tədbir keçirildi. Tədbiri keçirməkdə əsas məqsəd uşaqlarda kitaba, mütaliəyə maraq artırmaq, kitabxananı tanıtmaq, sülhə səsləməkdir. Tədbirdə uşaq yazıçılarından "Sehrli dünya" uşaq jurnalının redaktoru Gülzar İbrahimova, "Təhsil" nəşriyyatının və "Göy qurşağı" uşaq jurnalının redaktoru, yazıçı Sevinc Nuruqızı,

Qızıl Kəlmə mükafatçısı Qəşəm İsabəyli, gənc yazar Elvira Məmmədli və Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin rəhbəri doktor Əhməd Sami Elaydi, kitabxana əməkdaşları iştirak edirdi. Tədbiri giriş sözü ilə F.Köçərli adına Respublika Uşaq kitabxanasının direktoru Şəhla Qəmbərova açaraq bildirdi ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət uşaq siyasəti ölkəmizdə daim uşaqların hərtərəfli və ahəngdar inkişafının təmin edilməsinə yönəlmişdir. Sülh-əmin-amanlıq, qurub-yaratmaq, dinclik, sosial, iqtisadi və mədəni inkişafdır. Sülhün carçıları isə gələcəyimiz olan uşaqlardır. Bunun üçün uşaqlar yaxşı oxumalı, mütaliə etməli, öz bilik və savadlarını artırmalıdır. Ş.Qəmbərova Bilik günü münasibətilə uşaqları təbrik etdi, onlara xoş arzularını çatdırdı. Tədbirdə çıxış edən uşaq yazarları və digər qonaqlar tərəqqi, inkişaf üçün sülhün zəruriliyini qeyd edərək irqindən, dinindən, millətindən asılı olmayaraq hər bir dövlətin, hər bir bəşər övladının bunun üçün çalışmalı olduğunu vurğuladılar, uşaqlara öz şeirlərini oxudular, qeyd olunan gün münasibətilə təbriklərə qoşuldular. Tədbirdə şagirdlərin hazırladıqları bədii kompozisiyalar, uşaq yazarı A.Bünyatzadənin "Şirniyyat atan silahlar" nağılı əsasında qoyulmuş tamaşa, şeirlər, vətənpərvərlik və sülh mövzusunda mahnılar, rəqslər ifa olundu. F.Köçərli adına Respublika uşaq kitabxanası və uşaq yazarları tərəfindən məktəb kitabxanasına müxtəlif mövzularda kitab və jurnallar hədiyyə edildi. Tədbir xatirə şəkillərinin çəkilişi ilə başa çatdı. Kitabxananın əməkdaşı uşaqlara "Beynəlxalq Sülh aylığı" haqqında ətraflı məlumat verdi. Metodist  sülhün əmin-amanlıq, dinclik olduğunu uşaqlara izah etdi: Sülh - ağ göyərçinlərin mavi səmalarda

uçuşu, körpələrin üzünün təbəssümü, uşaqların parlaq gülüşləridir! Bütün dünya xalqları sülh istəyir, göyərçini sülh rəmzi kimi qəbul edirlər. Sülhün carçıları olan göyərçinlər uşaqlar tərəfindən daha çox sevilir. Tədbirdə, uşaqlara, "Göyərçin nə üçün sülh quşu adlanır?" sualı ünvanlandı. Kitabxanaçı bunu kiçik bir əfsanə ilə izah edərək tədbir iştirakçılarına “Göyərçin” haqqında nağıl danışdı. Nağıl bitdikdən sonra məktəblilər “Mən sülhə səs verirəm” şeirini ifa edib, sülh nəğməsini oxudular. Tədbir uşaqların göyərçin maketini hazırlamaları və "Nağıl otağı"nda cizgi filmini izləmələri ilə başa çatdı. Tədbirdən olan şəkilləri sizə təqdim edirik.














F.Köçərli adına Respublika Uşaq Kitabxanasında 21 avqust – 21 sentyabr Beynəlxalq Sülh aylığı çərçivəsində kiçik yaşlı oxucularla "Sülh göyərçinləri " başlığı altında rəsm müsabiqəsi təşkil etdi. Sülh rəmzi olan ağ göyərçinlər gələcəyimiz olan uşaqların firçasında günəşli gün, gözəl açılmış çiçəklər, sakit axan bulaqlar, aylı gecə kimi öz əksini tapdı. Tədbirin sonunda bütün uşaqlar uşaq yazarı G.İbrahimovanın "Sülh nəğməsi"ni , Rəşid Şəfəqin "Göyərçinik biz" nəğməsini ifa etdilər. Tədbirdə fəal iştirak edən balaca oxuculara kitabxananın təsis etdiyi "Göy Qurşağı" uşaq jurnalı hədiyyə edildi.
















1918

# Kitab sərgisi















F.Köçərli adına Respublika uşaq kitabxanasında Beynəlxalq Sülh günü münasibətilə tədbir keçirildi. İlk əvvəl dünyada münaqişə zamanı həyatını itirən insanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Tədbir boyu uşaqların sülh mövzusunda rəsm sərgiləri nümayiş etdirildi, şeirlər söylənildi, müxtəlif kompozisiyalar göstərildi. Şagirdlər tərəfindən hazırlanmış səhnəcik tədbir iştirakçılarına təqdim olundu. Əllərində Azərbaycan bayrağı olan iki məktəbli şeir söyləmək üçün səhnəyə dəvət olundu. Şeirləri sizə təqdim edirik

Dünyanın uşaqları!
Gəlin əl-ələ verək!
Ən hündür bir zirvədə
Sülh bayrağı yüksəldək!

Sülh bayrağı dalğalansın
Hər tərəfə sülh yaysın
Dünyadakı balalara
Sevincdən pay ayırsın!

Qoy dünyadakı uşaqlar
Həmişə gülsün, sevinsin,
Nə arzu etsə balalar
Yerinə yetsin arzular!

Mənim arzum budur Günəş,
Başımız üstündə olsun!
Gecələr sübhə qədər Ay,
Uşaqlara desin laylay!

Bir sehirli yağış yağsın
Dünyanı tərtəmiz etsin
Uşaqları sevməyənlər,
Çıxsın, dünyamızdan getsin!

Silah düzəldən əmilər
Silahları yandırsınlar,
Onlar da bizə qoşulub,
Sülh nəğməsi oxusunlar!

Bütün qəfəsləri açıb
Quşları göyə buraxaq
Sülhün azadlıq himnini
Əl-ələ tutaq, oxuyaq!

Bütün dünyaya yayılsın
Uşaqların arzuları,
Arzularına çatsınlar
Dünyanın gül balaları!

Sülhün azadlıq nəğməsi
Sevindirsin hər bir kəsi,
Göyərçinlər göyə qalxsın
Hamını sülhə çağırsın!



Tədbirin sonunda Şair, drammaturq Ramiq Muxtarın Respublika mahnı müsabiqəsində I mükafata layiq görülmüş Sülh şeiri səsləndirildi.Bu şeir Xalq artisti Şahlar Quliyevin ifasında lentə köçürülüb. Şeiri sizə təqdim edirik:

Sülh xalqın azadlığı
Sevinci, vüqarıdır.
Sülh səadət dünyası
Ömrün xoş baharıdır.

Sülh insan əməyinin
Ürəyidir, gözüdür.
Sülh sadə insanların
Ən sevimli sözüdür.

Firudin bəy Köçərli adına Respublika kitabxanasında Sülh günü ilə bağlı nağıl saatı təşkil olundu. Kitabxananın kiçik yaşlı oxucuları tərəfindən “Göyərçin və şah” nağılı səhnəyə qoyuldu. Kitabxanaçı sülh quşü Göyərçin haqqında oxuculara məlumat verdikdən sonra şagirdlər səhnəyə dəvət olundular.

Sülh! Sülh - əmin-amanlıqdır, asayişdir! Sülh-bolluqdur, bərəkətdir, firavanlıqdır! Sülh - sevincdir, səadətdir, şadlıqdır, xoş əhvali-ruhiyyədir! Sülh - ağ göyərçinlərin mavi səmalarda uçuşu, körpələrin üzünün təbəssümü, uşaqların şıltaq gülüşləridir! Bütün dünya xalqları sülh istəyir, göyərçini sülh rəmzi kimi qəbul edirlər. Həyatda ağ göyərçinin sülh rəmzi kimi qəbul edilməsi heç də təsadüfi deyildir. Bu barədə xalqımız arasında bir "Göyərçin əfsanəsi" vardır. https://www.testbook.az/essay/show/466/goyercin-sulh-remzi-kimi

Qədim zamanlarda xeyirxah bir padşah yaşayırdı. O öz ölkəsini əmin-amanlıqla idarə eləyirdi.Günlərin bir günü qonşu ölkənin hökmdarı onun ölkəsinə hücum edib padşahı təkbətək döyüşə çağırdı.Padşah çoxdan idi ki, müharibə etmirdi. Odur ki dava paltarını sarayın çardağında, əl-ayaqdan uzaq yerdə saxlayırdı. Savaşa bir gün qalmış şah anasından xahiş elədi ki, onun qılıncı ilə dəbilqəsini gətirsin. Anası getdi. Çox çəkmədi ki, oğlunun qılıncını, qalxanını gətirdi. Padşah anasından soruşdu:

Bəs döyüş papağım hanı?

Ana dedi:

– Səni and verirəm halal südümə, dəbilqəyə dəymə!

– Anacan, mən padşaham! Padşah isə döyüş meydanına dəbilqəsiz çıxa bilməz.

Anası çardaqda gördüklərini deməli oldu:

Anası çardaqda gördüklərini deməli oldu: – Bala, sənin döyüş papağının içində bir ağ göyərçin yuva qurub. Özünün də üç

körpə balası var. Mən bu günahsız balalara toxunsam, ağ göyərçin bizdən küsüb gedər. Yetim balaların ah-naləsi ölkəmizə bəlalar gətirər. Gəl bu dəfə döyüşə dəbilqəsiz get!

Bu sözləri eşidən padşah heç nə demədi, düşmənlə təkbətək döyüşə başıaçıq çıxdı. Qonşu ölkənin hökmdarı onu dəbilqəsiz görüb bunun səbəbini soruşdu. Padşah dedi:

– Mənim döyüş papağımda göyərçin üç bala çıxarıb. Anam südünə and verdi ki, balalara toxunmayım.

Bunu eşidən düşmən hökmdar qılıncını qınına qoydu, əlini düşməninə uzadıb dedi:

– Gəl barışaq! Sənin anan bir quşun – ağ göyərçinin evini dağıtmaq istəmədi. Biz niyə nahaq qan töküb minlərlə insanın evini dağıdaq?

Onlar barışdılar. O gündən ağ göyərçin sülh quşu hesab olunur.

https://portal.azertag.az/az/node/16424

## Hikmətli sözlər

Bir çox məşhur yazıçı və şairin, siyasətçinin, müdriklərin sülh haqqında ən gözəl fikirlərini bir yerə toplamışıq.

Evdə sülh, dünyada sülh.

M. Kamal Atatürk

Hətta sülh də böyük qiymətlərə satın alınır.

Benjamin Franklin

Sülh hər şeyi həzm etmədən xoşbəxtlikdir.

Viktor Hüqo

Sülh tacı kral tacı ilə müqayisə olunmaz dərəcədə gözəl və dəyərlidir. Epikür

İki qrup mömin bir-biri ilə vuruşursa, onları barışdırın. Özünüzdən başqa heç kim sizə sülh gətirə bilməz.

Emerson

Pis bir sülh yaxşı bir müharibədən daha yaxşıdır.

A. Puşkin

Güclü və iddialı qonşular arasında sülh təhlükəli bir xəyaldır.

Tatsitus

Quş kimi uçmağı və balıq kimi üzməyi öyrəndik. Ancaq çox sadə bir sənəti unutduq - qardaş kimi yaşamağı.

Martin Lüter Kinq

Əsas məqsəd qanun qarşısında bərabərlik, azadlıq, iqtisadi rifah və bütün insanların dinc əməkdaşlıq etməsidir.

Knut Viksell

Müharibə insanı məhv edən pisliklərin ən vacibidir. Müharibə xalqların varlığını məhv edir; ən gözəl ölkələrin zərər görməsinə səbəb olur; ən yaxşı insanları məhv edir və şəri gücləndirir; bir ölkəyə hər cür qarışıqlıq, anarxiya və korrupsiya gətirir.

Con Kennedi

Niyə birlikdə barışıq və sülh içində yaşamayaq? Hamımız eyni ulduzlara baxırıq, eyni planetdə yol yoldaşıyıq və eyni səma altında yaşayırıq.

Aunius Aurelius Simaçus

Dünyanı müharibə təhlükəsindən qorumağın yalnız bir yolu var: dünya miqyasında səlahiyyətə sahib olan və dünyadakı bütün silahların inhisarını əlində saxlayan vahid bir orqanın yaradılması. Bertrand Russellbiət qanununun ilk və əsas prinsipi sülhü axtarmaq və qorumaqdı

Tomas Hobbes

Beynəlxalq Sülh Günü müharibə, təbii fəlakətlərin nəticələri, aclıqdan və ayrı-ayrı dövlətlərin iddialarından meydana gələn regional qarşıdurmalardan əziyyət çəkən milyardlarla insanın ağrılarını duymaq üçün fürsətə çevrilib.

Ənənəvi olaraq Beynəlxalq Sülh Günü BMT-nin Nyu-Yorkdakı baş qərargahında yerləşən "Sülh zəngi"nin çalınması ilə başlayır. 2007-ci ilin həmin günündə BMT-nin Baş katibi Pan Gi Mun "Sülh zəngi"ni çalaraq dünyanı bütün döyüş əməliyyatlarını, ədavəti 24 saat ərzində dayandırmaqla bir dəqiqəlik sükuta çağırıb. "Sülh bizim missiyamızdır, gündəlik axtarışlarımızın mövzusudur" deyən Baş katib dünyanı bir daha sülh uğrunda səyləri birləşdirməyə səsləyib.

Bu çağırışlar 32 ilin bütün günlərini atəş səsləri ilə qarşılayaraq yola salan Azərbaycan Respublikası və onun xalqı üçün ümid işartısı olub. Həmin müddətdə Azərbaycan xalqı ölkə ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələrinin işğalından nə zaman azad ediləcəyi və 1 milyondan çox insanın məcburi köçkün həyatına son qoyulacağı təsəllisi ilə yaşayıb. Bu müddət ərzində işğalçılıq siyasətini davam etdirən Ermənistan BMT Təhlükəsizlik Şurasının işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması ilə bağlı 822, 853, 874, 884 nömrəli qətnamələrinin heç birinə əməl etməyib. Buna baxmayaraq, Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində ardıcıl və mühüm addımlar atıb. Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin iradəsi ilə 1994-cü ilin mayında atəşkəs haqqında razılaşma imzalanıb. Prezident Heydər Əliyev bütün beynəlxalq təşkilatların və ali tədbirlərin ən

yüksək tribunalarından Azərbaycan xalqının sülh istəyini ifadə edərək Ermənistan tərəfin başlatdığı münaqişənin danışıqlar, sülh yolu ilə aradan qaldırılmasının vacibliyini vurğulayıb. Böyük dövlət xadiminin 1996-cı il dekabr ayının 3-də ATƏT-in Lissabon sammitində elan etdiyi, bölgədə ədalətli sülhün bərqərar olunması üçün mühüm addım olan Bəyannamə təşkilata üzv olan 54 ölkə tərəfindən dəstəkləndi, lakin Ermənistanın iddialarına cavab vermədiyindən cavabsız qaldı.

Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin apardığı müdrik siyasətin ayrılmaz tərkib hissəsi olan bu dəst-xətt təcavüzkar Ermənistana qarşı sülh danışıqlarının limiti bitənədək dəyişmədi. Prezident İlham Əliyevin Ermənistana Azərbaycan xalqının səbrinin heç də hüdudsuz olmadığını xatırlatmasına baxmayaraq, cəzasızlıq mühitinin əbədiliyinə inanan erməni Baş nazir Nikol Paşinyan "Qarabağ Ermənistandır və nöqtə", o zamankı müdafiə naziri David Tonoyan isə "Yeni ərazilər üçün yeni müharibə" cavabları ilə yaddaşlarda qaldı. Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlayan, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il noyabrın 10-da imzaladıqları Birgə Bəyanatla başa çatan Vətən müharibəsinin nəticələri regionda real sülhün bərqərar olması üçün fundamental əsaslar yaratdı. Bu əsaslar Azərbaycan xalqının və onun ən böyük maddi-mənəvi sərvətlərindən olan Silahlı Qüvvələrimizin və onun Ali Baş Komandanı İlham Əliyevin regionda yaratdığı yeni status-kvonu şərtləndirən amil oldu.Azərbaycan Respublikasının

dövlət siyasəti regionda əbədi sülhün bərqərar olmasına yönəlib və bu kurs ardıcıl olaraq aparılır. Bu siyasətin reallaşması üçün dövlətimizin başlıca şərti Azərbaycan XİN-in yaydığı bəyanatda bu cür ifadə edilir: “Azərbaycan ərazi bütövlüyünü bərpa edərək, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının qarşılıqlı şəkildə tanınması və hörmət edilməsi əsasında Ermənistanla münasibətləri normallaşdırmaq əzmini dəfələrlə dilə gətirib. Ermənistana sərhəd delimitasiyası və demarkasiyası ilə bağlı ikitərəfli müzakirələrə başlamağı təklif edirik. Azərbaycan Ermənistanın müsbət reaksiyasını gözləyir. Ermənistanda revanşist ritorika ilə müşayiət olunan Azərbaycana qarşı nifrət ciddi narahatlıq doğurur. Ermənistandakı hakim və müxalif siyasi xadimləri birləşdirən antiazərbaycan nifrət nitqi kövrək normallaşma prosesini risk altına alır”. Həmin riskin nə ilə nəticələnəcəyini isə indi Ermənistanda yaxşı anlayırlar.Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın da fəaliyyəti dünyada sülhün qorunmasına, həmçinin münaqişə ocaqlarında sülhün bərqərar olunmasına göstərdiyi xidmətlərə görə fərqlənib. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü, UNESCO və ICESCO-nun dəstəyi ilə 2008-ci ildə Bakıda keçirilən “Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi” beynəlxalq forumu ümumbəşəri mədəniyyətə, sülhün və əmin-amanlığın bərpa olunmasına hesablanmış ən böyük addım olaraq yadda qalıb. Ölkəmizdə bilavasitə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə “Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü”, “Gənclər sivilizasiyaların alyansı naminə”

mövzusunda beynəlxalq konfranslar, “Dünya gənclərinin 4-cü məşğulluq sammiti”, BMT-nin Dövlət Xidmətləri Forumu, habelə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu kimi qlobal tədbirlər uğurla keçirilib. Bütün bu tədbirlər isə Azərbaycanın dünyada sülhün bərqərar olmasına töhfə vermək niyyətini ifadə etməklə yanaşı, sülhün təşviqində də böyük rol oynayıb.

https://azertag.az/xeber/Sentyabrin_21_i_Beynelxalq_Sulh_Gunudur-1880843

**F. Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**


**Bayramova Z.** Azərbaycanda müxtəlif dinlərə məxsus insanlar sülh və əmin-amanlıq şəraitində yaşayır : 21 Sentyabr Beynəlxalq Sülh Günüdür // Səs. - 2019. - 21 sentyabr. - № 173. - S. 10.

**Bayramova Z.** Sülhsevər Azərbaycan dünyaya nümunədir : 21 Sentyabr - Beynəlxalq Süıh Günüdür // Səs. - 2018. - 21 sentyabr. - № 178. - S. 8.

Bilik günü - **Sülh** günü : Sentyabrın 15-də Bilik və **Sülh** günü münasibətilə F. Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə Zəngilan rayon 4 nömrəli ümumi orta məktəbə 21 avqust - 21 sentyabr **Sülh** aylığı çərçivəsində "Bilik günü - **Sülh** günü" adlı tədbir keçirildi // Göy qurşağı. - 2018. - № 4. - S. 6-7.

**Əbilov Ə.** Sülh : şeir // Savalan. - 2009. - 2-5 oktyabr. - N 40. - S. 1.

**Əfəndiyeva V.** Sülh mədəniyyəti : Milli Məclis aparatının Beynəlxalq münasibətlər şöbəsinin əməkdaşı Vəfa Əfəndiyevanın söhbəti // Xalq qəzeti. - 2009. - 14 fevral. - S. 4.

**Əsədov B.** Salam sülhdür, sülhə aparan barış yoludur // Azərbaycan. - 2007. - 21 noyabr. - S. 7.

**İsmayılqızı X.** Atəş səslərini təbiətin gözəllikləri ilə susduraq : Beynəlxalq Sülh Gününün builki devizi insanları iqlim dəyişikliyinə qarşı mübarizədə həmrəyliyə çağırışdır : 21 Sentyabr Beynəlxalq Sülh Günüdür // İki sahil. - 2019. - 21 sentyabr. - № 173. - S. 14.

**Məmmədli A.** Yurdda sülh, cahanda sülh : Mustafa Kamal Atatürk // Respublika. - 2013. - 30 avqust. - № 188. - S. 6-8.

**Müşfiq Ş.** "Sülh aylığı"nda sülhə səsləyənlər : 21 avqust 21 sentyabr "Beynəlxalq sülh aylığı" çərçivəsində müxtəlif tədbirlər, rəsm sərgiləri keçirilir : Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının bu xüsusda keçirtdiyi tədbir "Günəş olaram mən də" adlanır // 525-ci qəzet. - 2019. - 7 sentyabr. - № 122. - S. 12.

**Nərimanoğlu M.** Sülh inkişafın əsas terminlərindəndir : 21 sentyabr Beynəlxalq Sülh Günüdür // Azərbaycan. - 2012. - 21 sentyabr. - № 211. - S. 6.

**Nərimanoğlu M.** Zamanın arzusu : 21 sentyabr Beynəlxalq Sülh Gündür // Azərbaycan. - 2011. - 21 sentyabr. - № 207. - S. 6.

**Ömərov V.** Sülh mədəniyyəti hüquqi dövlətin əsas cəhətidir // Səs. - 2014. - 21 avqust. - № 152. - S. 15.

**Pənahov A.** Sülh bəşəriyyətə xoşbəxtlik gətirir : 21 sentyabr - Beynəlxalq Sülh Günüdür / // Azərbaycan ordusu. - 2013. - 18 sentyabr. - № 42. - S. 4.

Qadınlar dünya tarixinin hər bir dövründə **sülhün**, əmin-amanlığın və dinc yanaşı yaşamanın ən böyük təminatçısı olmuşlar // Respublika. - 2008. - 11 iyun. - S. 1-5.

**Qasımov Ə.** "Sülh zəngi"nin səsləndiyi gün : 21 sentyabr - Beynəlxalq Sülh Günüdür // Azərbaycan ordusu. - 2013. - 20 sentyabr. - № 43. - S. 4.

**Süleymanova E.** Davamlı sülh - ümumbəşəri dəyərdir : 21 sentyabr Beynəlxalq Sülh Günüdür // Respublika. - 2015. - 20 sentyabr. - № 206. - S. 3.

**Süleymanova E.** Davamlı sülh insan hüquqlarının səmərəli təmininə xidmət edir : 21 sentyabr Beynəlxalq Sülh Günü // Respublika. - 2016. - 21 sentyabr. - № 206. - S. 6.

**Süleymanova E.** Sülh inkişafın təməlidir : 21 sentyabr Beynəlxalq Sülh günüdür // Respublika. - 2010. - 21 sentyabr. - N 203. - S. 5.

Sülhün carçıları : [21 avqust - 21 sentyabr "Beynəlxalq Sülh aylığı" ilə əlaqədar F.Köçərli adına Respublika Uşaq Kitabxanası müxtəlif tədbirlər keçirmişdir] // Göy qurşağı. - 2017. - № 4. - S. 8-9.

**Ülvi A.** Mövlananın sülh mesajına dünyanın bu gün hər zamankından daha çox ehtiyacı var : Cəlaləddin Rumi - 800 // Xalq qəzeti. - 2007. - 24 oktyabr. - S. 7.

**Yusifoğlu R.** Dünyaya sülh gərəkdir : şeir / R. Yusifoğlu // Göyərçin. - 2011. - № 9. - S. 2.

# Qoy həmişə sülh olsun..

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Ülkər Cabarova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**